# Ana çiynində yola salınan şəhid

**4 aprel tarixdə ruhu behişt səmasına ilk qanadlanan şəhidlərin dəfni zamanı Zaqatala rayonunun Muxax kənd sakini olan qara paltarlı qadını yəqin xatırlayırsız. Həmin ağır səhnəni tarixə çevirən televiziya verilişi də efirə gedib, müxtəlif süjetlər də var: Həvva Nurayeva şəhid oğlunun tabutu altına çiyin verib, mərasim iştirakçılarına, kəndin kişilərinə, mərhumun əsgər yoldaşlarına qoşularaq, hər kəsdən qabaqda addımlayırdı.**



...Ağır itkinin iki-üç gün ərzində 50-60 il qocaltdığı, belini bükdüyü bu zərif xilqəti zamanın gərdişi lap çoxdan sınağa çəkmişdi. Həyat yoldaşı İsmayıl kəndin zəhmətkeş, çörəkli kişilərindən imiş, amma dünyasını çox tez dəyişib. 1999-cu ildə o rəhmətə gedəndə qızının 5, oğlunun isə cəmi 2 yaşı olub. Əzab-əziyyətə qatlaşıb, bir telini ağ, digərini də qara hörərək, övladlarını təkbaşına böyüdüb. Fatmanı gəlin köçürüb, Rəvanı əsgərliyə yola salıb. Mövzu ilə bağlı ailənin qudası Tamam Ramazanova danışır:

- Həvvagillə həm qonşuyuq, həm də qohum. Qızı mənim gəlinimdir. Çox gözəl, namuslu ailədir. 2 yaşından Rəvanı və qızını yetimliklə böyüdüb. Aprelin 3-ü gəlinim Fatma dedi ki, qardaşının əsgərliyinin 1 ili keçdi, 6 ayı qalıb. Şəklini əlinə götürüb, başladı ağlamağa. Dedim niyə ağlayırsan ki, şükür Allaha, gəlib çıxacaq... Axşamüstü də qudam Həvva gəldi. Heç özünə yer tapa bilmirdi. Cəbhədə gərginliyin yaranmasından, nankor ermənilərin mövqelərimizi atəşə tutmalarından məlumatımız vardı. Ancaq Rəvanla bağlı qara xəbər alacağımız heç ağlımıza da gəlməzdi. Çünki o, Mingəçevirdə hərbi təlim keçirdi. Oturub söhbət etdiyimiz vaxt kəndin icra nümayəndəsi həyətə girdi. Həvva hövlnak ayağa qalxıb onun üstünə qaçdı, qışqıra-qışqıra soruşdu ki, oğluma nə olub?

Söhbətə hönkürtü ilə Həvva Nurayeva qoşulur:

- Övladlarımı bu kənd yerində zəhmətlə böyütdüm. Rəvan söyləyirdi ki, "ay ana, böyüyüb bütün zəhmətlərinin əvəzini verəcəm". 2015-ci ilin aprel ayında hərbi xidmətə çağırıldı. Həmin gündən dolu zənbillərlə Mingəçevirə, Tərtərə, Goranboya görüşünə yollanırdım... Evdə tək qalmağı bacarmırdım. Deyirdi, "ay ana, mən balaca deyiləm, əziyyət çəkmə". Kaş, axırıncı dəfə 10 gün balamın yanında qalaydım, bəlkə doyardım ətrindən. İndi cismani yoxluğu ilə sanki anasının-bacısının ürəyini qoparıb gedib Rəvan. Ana qəlbini nə ilə ovudasan, təsəlli verəsən... Şəhidlərimiz seçilmişlərdir, baxın, barələrində müqəddəs Quran ayələri nazil olub, uşaqlıqdan müqəddəs cihad, vətənin müdafiəsi arzuları ilə alışıb yanırlar, başqa bir peşə dalınca getmələrinə nəsə ilahi qüvvə maneçilik törədir, sonda Vətən onları böyük məhəbbətlə ağuşuna çəkir. Ailə, qohumlar xalqın dəstəyindən, dövlətin qayğısından razılıq edirlər. Doğmaları deyirlər ki, Rəvan son mənzilə yola salınanda həyətdə iynə atsan, yerə düşməzdi: "Belə şəhid dəfni heç görünməyib. Cənazənin sağında-solunda Azərbaycan əsgərləri dayanmışdı. Sanki ona keşik çəkirdilər. Sağ olsun yerli icra hakimiyyəti orqanları, ailəni də diqqətdə saxlayırlar. Dünyada kim əbədidir ki, bu da bir yazı, bir qismət idi. Amma uşağın arzuları yarımçıq qaldı.

Rəvanın üç mərasimi günü, aprelin 7-də Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Bakıda şəhid anaları, bacıları, qızları ilə görüş keçirirdi. Rəvanın bacısı Fatma Nurayeva da həmin tədbirdə iştirak edib, amma utandığından heç nə danışa bilməyib. Sonradan, Mehriban xanımın köməkçisi ailəyə telefon açıb, problemləri ilə maraqlanıb. Zəlzələdən ziyan çəkdiklərini, qəzalı mənzildə yaşadıqlarını deyiblər. Ömrü uzun olsun, Azərbaycanın birinci xanımı tərəfindən maddi yardım göstərilib, həyətdə yeni ev tikməyə başlayıblar...

Şəhid Rəvan İsmayıl oğlu Nurayev Vətən qarşısında borcunu ləyaqətlə yerinə yetirərək, xain düşmən hücumunun qarşısını alarkən göstərdiyi rəşadət də yüksək dəyərləndirilib. Onun layiq görüldüyü "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ailə üzvlərinə təqdim edilib.

*Qurban MƏMMƏDOV*

Azərbaycan.- 2024.- 9 aprel, № 73.- S.8.